# 28 May Respublika Günüdür

*Mayın 28-də Şərqdə ilk demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 99 il ötür.*

*1917-ci ilin fevral ayında çar Rusiyasında baş verən inqilab imperiyanın tərkibinə zorla daxil etdiyi xalqların milli azadlıq hərəkatını gücləndirdi. 1918-ci ilin may ayının 28-də Tiflisdə Azərbaycandan Zaqafqaziya seyminə daxil olan nümayəndələr müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında bəyannamə imzaladılar. Məmməd Əmin Rəsulzadə Milli Şuranın (parlament) sədri, Fətəli Xan Xoyski Azərbaycan müvəqqəti hökumətinin başçısı seçildi.*

Milli Şura və Azərbaycan hökuməti 10 gün Tiflisdə fəaliyyət göstərdikdən sonra Gəncəyə köçdü. Yalnız 1918-ci ilin sentyabrında Osmanlı- türk ordusunun köməyilə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi Bakıya yerləşdi.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq bir sıra mühüm islahatlar həyata keçirdi. İlk dəfə qadınlara seçmək və seçilmək hüququ verən və qadın-kişi bərabərliyini təmin edən cümhuriyyət milli ordu, milli pul, milli bank, azad seçkilər, beynəlxalq ələqələr, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması, ölkənin ərazi bütövlüyünün təmin edilməsi və sair sahələrdə mühüm tədbirlər həyata keçirmişdir.

1918-ci il 9 noyabr tarixində Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi iki ildən də az fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Azərbaycan Xalq Cümhuriyyəti xüsusən təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən biri tədris müəssisələrinin milliləşdirilməsi oldu. 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Dövlət Universitetinin (hazırkı Bakı Dövlət Universiteti) təşkili haqqında qanun qəbul etdi və bununla milli ali təhsil ocağının əsası qoyuldu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə kitabxana və muzey işinin qurulması sahəsində böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmişdir. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

Demokratik Respublika dövründə Azərbaycanda ilk muzey—"İstiqlal" muzeyi təşkil olunmuşdur. Eyni zamanda Bakıda "Etnoqrafiya" muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır. Xalq Cümhuriyyətinin zəngin, rəngarəng və orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.

İstiqlal dövrü milli teatr sənətinin, poeziyanın, dramaturgiyanın, ümumiyyətlə, incəsənətin inkişafında çox mühüm və maraqlı bir dövrdür. 1918-ci ilin oktyabrında Bakıda Hacıbəyli qardaşları tərəfindən teatr truppası yaradılmışdır. Azərbaycan hökuməti bu teatr truppasını öz himayəsinə almışdır. Həmin dövr teatrın inkişafında əsaslı keyfiyyət dəyişiklikləri, dövlətin teatr sənətinə fəal yardımı, teatrın cəmiyyətin həyatında rolunun artması ilə əlamətdardır.

Azərbaycan Xalq Cumhuriyyəti gərgin və mürəkkəb ictimai siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi. Daxili çəkişmələr və xarici müdaxilə nəticəsində 1920-ci ilin aprelin 28-də süquta uğradı. Azərbaycan 71 ildən sonra 1991-ci ildə Sovet İttifaqının dağılması ilə yenidən—bu dəfə ulu öndər Heydər Əliyevin sayəsində daimi müstəqilliyinə qovuşdu.

✍ **Qüdrət SƏMƏDOV, «Qəbələ»**

# Maraqlı konsert

*Bu günlərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Qəbələ Mədəniyyət Mərkəzində Qara Qarayev adına Bakı şəhər, Qəbələ, Şamaxı və İsmayıllı rayon incəsənət məktəblərinin bir qrup şagirdləri maraqlı konsert proqramı ilə çıxış etmişlər.*

*Konsertdə dünya və Azərbaycan bəstəkarlarının klassik musiqi nümunələri səsləndirilmişdir.*





Tədbirin təşkilində məqsəd regionda fəaliyyət göstərən incəsənət məktəbləri şagirdlərinin ifaçılıq qabiliyyətlərinin paytaxt məktəblərinin şagirdləri ilə birlikdə harmonik inkişafına nail olmaq, müəllimlər arasında təcrübə mübadiləsini genişləndirmək və milli musiqi mədəniyyətimizin ən yaxşı nümunələrini təbliğ etməkdir.

✍ **Anar RÜSTƏMLİ.**

# Fikir mübadiləsi aparılıb

*Avrasiya Əməkdaşlıq Fondu Niderland Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə "Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi" Proqramını həyata keçirir.*

Bu layihə çərçivəsində Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri, ekspert Sahib Məmmədovla Avrasiya Əməkdaşlıq Fondu arasında imzalanmış 07 mart 2017-ci il tarixli müqavilə əsasında həyata keçirilən "İctimai İştirakçılıq, mövcud vəziyyətin öyrənilməsi və yeni təşəbbüslərin dəstəklənməsi" adlı sifariş çərçivəsində 12 may 2017-ci il tarixində Qəbələ şəhərində yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və regionun vətəndaş cəmiyyətləri nümayəndələrinin iştirakı ilə "İctimai İştirakçılıq, yerli qərarların qəbulunda vətəndaş iştirakçılığı" mövzusunda müzakirələr keçirilmişdir.

Ekspertlər İsrail İsgəndərov və Sahib Məmmədov müzakirə üçün məruzələr təqdim etmişlər.

Ekspert İsrail İsgəndərov "Azərbaycanda ictimai iştirakçılıq modelləri və formaları" mövzusunda çıxış etmişdir. Daha sonra bu mövzu və yerli qərarların qəbulunda vətəndaşların iştirak imkanları ilə bağlı müzakirələr olmuşdur. Yerli icra hakimiyyəti, özünüidarə orqanları, qeyri hökumət təşkilatları təmsilçiləri ictimai iştirakçılıqla bağlı mövcud olan təcrübə, həmçinin problemlər barədə mülahizələrini söyləmişlər.

Çıxışlarda əsasən təhsil, sosial təminat sistemi ilə bağlı qərarların qəbulunda ictimaiyyətin fikirlərinin və rəylərinin öyrənilməsinin vacibliyi vurğulanmışdır.

**"Qəbələ"**

*Azərbaycanda 2008- ci ildən etibarən 15 may "Beynəlxalq Ailə Günü" kimi qeyd edilir. Ölkəmizin inkişafı, milli dəyərlərimizin qorunub saxlanılması üçün ailə dəyərləri daim yüksək səviyyədə olmalıdır. Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları da bu dəyərləri özünə rəhbər tutaraq fəaliyyətlərini ailələrin daha da möhkəm təməllər üzərində qurulması, övladlarımızın sağlam və möhkəm ailədə böyüməsi, erkən nikahların qarşısının alınması istiqamətində təşkil etmişdir.*

# Silsilə tədbirlər təşkil olunmuşdur

Xüsusi qayğıya ehtiyacı olan ailələrə köməklik göstərməklə xeyirxah bir missiyanı yerinə yetirən mərkəz tərəfindən könüllülərlə birlikdə "Beynəlxalq Ailə Günü" münasibəti ilə rayonumuzda bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, rayonda yaşayan imkansız ailələrə baş çəkilmiş, onların ailə üzvləri ilə görüşlər təşkil olunmuş, qayğıları ilə maraqlanılmışdır.

Belə ailələrdən biri Vəndam qəsəbəsində yaşayan Asya Aslanovanın ailəsidir. Bu ailədə əməkdaşlar tərəfindən çay süfrəsi təşkil olunmuş, xüsusi hədiyyələr təqdim edilmişdir. Əməkdaşların növbəti səfəri rayonun Mıxlıqovaq kənd sakini Səadət Hüseynovanın ailəsinə olmuşdur. Bu ailənin iki övladı serebral iflic xəstəliyindən əziyyət çəkir. Ailəyə mərkəzin əmək-



daşları və könüllülər tərəfindən yardımlar göstərilmiş, çay süfrəsi təşkil edilmiş və hədiyyələr təqdim olunmuşdur. Mərkəzin işçiləri Qəbələ şəhər sakini Güleyşə Bəkirovanın ailəsinə də baş çəkmiş, müxtəlif hədiyyələr təqdim etmişlər.

✍ **Sevil MƏMMƏDOVA, mərkəzin sosial iş üzrə mütəxəssisi.**

# Ötən 20 ildə istehsal 2,4 dəfə artıb

Azərbaycanda aqrar islahatların birinci mərhələsinin başlamasından ötən 20 illik dövrdə kənd təsərrüfatı məhsulları istehsalı bütövlükdə 2,4 dəfə, o cümlədən bitkiçilik məhsulları 2,3 dəfə, heyvandarlıq məhsulları isə 2,5 dəfə artıb.

1996-2016-cı illər ərzində taxıl istehsalı 1 milyon 18 min tondan 3 milyon 65 min tona, kartof istehsalı 214,6 min tondan 902,4 min tona, tərəvəz istehsalı 570 min tondan 1 milyon 269 min tona, bostan məhsulları 52 min tondan 464,5 min tona, ət istehsalı 115,7 min tondan 303,8 min tona, süd istehsalı 843,3 min tondan 2 milyon 9 min tona, yumurta istehsalı 477 milyon ədəddən 1,6 milyard ədədə çatıb.